


*Hacıqabul rayon tarix-diyarşünaslıq muzeyinin 2400-dən artıq eksponatı arasında bəlkə də ən az nəzərə çarpanı ilə bağlı qələmə alınmış bu yazı ilk təəssüratın bəzən nə qədər aldadıcı olduğuna bir nümunədir.*

2003-cü ilin payızında muzeyimiz təşkilatı cəhətdən bərpa olunarkən bu işin yaradıcı tərəfini həyata keçirən şəxs kimi haqqında danışdığım eksponatla tanış olanda əvvəlcə əhəmiyyətsiz hesab edib atmaq istəmişdim. Amma daha diqqətli yanaşmadan sonra fikrimi dəyişməli oldum...

Həmin eksponatı – «Vışka» qəzetinin 5 mart 1958-ci il tarixli nömrəsindəki «2000 лет назад» (2000 il əvvəl) məqaləsini dilimizə çevirməklə olduğu kimi diqqətinizə təqdim edib, daha sonra bu yazını qələmə almaqda güddüyüm məqsədi açıqlamaq istəyirəm.

* * *

Həmin gün alınmış onlarla məktub arasında biri Respublika Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşlarının diqqətini xüsusilə cəlb etmişdi. Müəllifər-müəllimlər Məmməd və Əhməd Cəfərovlar-Qazıməmməd (indiki Hacıqabul – **M.H.**) rayonun Tava kəndi yaxınlığında məktəblilər tərəfindən tapılmış qədim gil qabların qalıqları haqqında məlumat verirdilər. Onlar maraq kəsb edirmi?

Bakıdan kəndə institutun gənc elmi əməkdaşları-tarix elmləri namizədi Cabbar Xəlilov və Qara Əhmədov yola düşdülər. Kolxozçular nəql etdilər ki, bu yerlərdə çoxları köhnə pullar da tapıblar.

Artıq ilk qazıntılar tapıntı sevinci doğurdu. Kənddən təqribən bir kilometr aralıda Pirsaatçayın sol sahili üstündə Yastıqalaq və Yumruqalaq dağlarında orta əsrlər qala tipli yaşayış yerinin qalıqları tapıldı. Bir metr yarıma çatan mədəni layın dərinliyində yüzillər əvvəl səviyyəsi daha yüksək olmuş çaya gedən və qayada çapılmış cığır tapılmışdır. Elə buradaca yabanılaşmış meyvə ağacları: əncir, nar bitir.

Məlumatlar göstərir ki, adamlar burda İrandan Şirvan şahlığının paytaxtı Şamaxıya baş ticarət karvan yolunun üstündə, XIII-XV əsrlərdə yaşamışlar. Tapılmış pullar içində isə Qızıl Orda xanı Cuçi bəyin adı ilə bir təngəlik aşkara çıxarılmışdır.

Sonrakı tədqiqatlar daha bir tapıntı əldə etməyə imkan verdi. Çayın sağ sahilində, indi Qubalı kəndi olan yerdə alimlər daha erkən dövrə aid yaşayış yerinin izlərini tapdılar. Qabların və daş əşyaların qalıqları VI-VII əsrlərin, yəni qədim Albaniyanın az öyrənilmiş mərhələsinin yaşayış yerinə dəlalət edir.

Amma Tava və Qubalı kəndləri arasındakı kurqanlar daha qədimdirlər. Təqribi hesablamalara görə onların yaşı 2000 ildən az deyil».

* * *

Beləcə üstündən yarım əsr keçsə də elmi əhəmiyyətini o qədər də itirməmiş bu məqalə rayonumuzun ümumi şəkildə Udulu adlandırılan bir guşəsinin qədim tarixi haqda, fraqmentar da olsa, məlumat verir. Baxmayaraq ki, məqsədimiz yazıdakı tarixi şəxsiyyət, fakt və rəqəmlərdən deyil, orada adı çəki-

lən nisbi mənada müasirlərimizdən söz açmaqdır.

Məqalədəki müəllimlərin ad və soyadları oxucularda, şübhəsiz ki, heç bir xüsusi təəssürat doğurmayacaq. Amma əlavə etsək ki, onlar sonradan öz familiyalarının sonluğunu dəyişərək Cəfərzadəyə çevirmişlər, artıq onları tanıyanlar tapılacaq. Onu da artırsaq ki, Məmməd və Əhməd Cəfərzadələr sonralar məşhur bacıları-yazıçı-alim Əzizə kimi filologiya elmləri doktoru elmi dərəcəsinə yiyələnərək çoxsaylı kitabların müəllifi olmuşlar, o halda mənzərə bir qədər də aydınlaşar.

Amma bu yazının meydana gəlməsinin səbəbi hələ sıravi kənd müəllimi olarkən öz vətəndaşlıq borcunu yerinə yetirən gələcəyin alimlərini vəsf etmək də deyil.

Dörd il əvvəl rayon muzeyi bərpa olunarkən onun fondunun genişlənməsinə kömək edənlər arasında haqqında bəhs etdiyim müəllim-alimlərdən birinin – Əhməd Cəfərzadənin oğlanları Aydın və Eldar Cəfərzadələr ən fəallardan olmuşlar.

Öz ataları, əmi və bibiləri haqda materiallar öz yerində, muzeyə bağışladıqları maddi mədəniyyət nümunələri bu şəxslərin əsl ziyalı olmaqla özlərindən əvvəlki nəslin layiqli nümayəndəsi olduqlarına əyani sübutdur.

Doğrudan da bir neçə saatlıq dağlıq yolları qət edib at arabasının banının bir hissəsi, barıt qabı, bəzək əşyaları və sairəni muzeyə çatdırmaq üçün yüksək mədəniyyət yiyəsi olmaq lazımdır.

Bu yerdə sərlövhəyə çıxarılmış atalar sözü yada düşür: «Ot kökü üstə bitər!»

**Məhəmməd HÜSEYNOĞLU,**
**Hacıqabul rayon tarix-diyarşünaslıq muzeyinin əməkdaşı**